Dekabrın 23-də elm və təhsil naziri Emin Əmrullayev Saatlıda vətəndaş qəbulu keçirib.

Nazir Saatlıya səfəri çərçivəsində Saatlı şəhər 4 nömrəli tam orta məktəbdə də olub. Emin Əmrullayev məktəbin müəllim və şagird kollektivi ilə görüşüb, eyni zamanda təhsil ocağının ümumi şəraiti, dərs otaqları ilə tanış olub.

Məktəbin peşə təmayüllü siniflərində tədris prosesini izləyən elm və təhsil naziri şagirdlərin əl işlərinə baxış keçirib, onların bişirdikləri şirniyyat məhsullarının dadına baxıb.